# Bayram tədbiri

2 Fevral - Gənclər Günü münasibətilə Şəki-Zaqatala Regional Gənclər və İdman İdarəsinin




təşkilatçılığı ilə forum keçirilmişdir. Qəbələ Dövlət Peşə Təhsil Mərkəzində təşkil olunan tədbirin rəsmi hissəsində Şəki-Zaqatala Regional Gənclər və İdman İdarəsinin rəisi Ramiz Mahmudov, Qəbələ Dövlət Peşə Təhsil Mərkəzinin direktoru Qalib Nəbiyev, Qəbələ rayonu üzrə Təhsil Sektorunun müdiri Arifə Bayramova və Gənclərin İnkişaf və Karyera Mərkəzinin Dağlıq Şirvan regional nümayəndəliyinin Qəbələ bölməsinin mütəxəssisi Teymur Alşanov çıxış edərək Gənclər Gününün əhəmiyyətindən, gənclər üçün həyata keçirilən layihə və fəaliyyətlərdən, onların intellektual, fiziki, mənəvi inkişafı üçün davamlı olaraq həyata keçirilən layihələrdən bəhs etmişlər. Həmçinin gənclərin milli-mənəvi dəyərlərə sadiq, vətən-



pərvər ruhda formalaşmasının vacibliyi vurğulanmış, onların gələcəkdə ölkənin inkişafında mühüm rol oynayacaqları diqqətə çatdırılmışdır.

Rəsmi hissədən sonra təşkil olunan panel müzakirəsində region gənclərinin inkişafı və karyera imkanları, dövlət, təhsil, könüllülük və təcrübə mexanizmləri" müzakirə olunmuşdur.

Panel spikerləri: Şəki-Zaqatala Regional Gənclər və İdman İdarəsinin rəisi Ramiz Mahmudov, Qəbələ Heydər Əliyev Mərkəzinin direktoru Kəmalə Qasımova, Qəbələ Dövlət Peşə Təhsil Mərkəzinin təhsilalanlarla iş şöbəsinin müdiri Əhməd Əhmədli, Qəbələ regional "ASAN xidmət" mərkəzinin baş mütəxəssisi Şahlar Eyyubov olmuşdur.

Spikerlər region gənclərinin inkişafında dövlət mexanizmləri, Ulu Öndər Heydər Əliyev tərəfindən Gənclər Gününün təsis edilməsi, Regionlarda peşə təhsilinin rolu və əhəmiyyəti,Gənclərin könüllülük fəaliyyətinə cəlbi və ASAN Könüllüləri modeli mövzuları ətrafında çıxışlar etmişlər.

Sonda 2025-ci il ərzində fəallığı ilə fərqlənən gənclərə Şəki-Zaqatala Regional Gənclər və İdman İdarəsinin fəxri fərmanları təqdim olunmuşdur.

**Mübariz AĞAYEV,**
**Şəki-Zaqatala Regional Gənclər və İdman İdarəsi.**

# Qadınlar elmdə

11 fevral - "Qadınlar və qızlar elmdə" Beynəlxalq Günüdür. AZƏR TAC-ın verdiyi xəbərə görə bu əlamətdar gün 2025-ci ildə STEM sahəsində karyera imkanlarının üzə çıxarılması "Elmdə qadının səsi" mövzusuna həsr edilmişdir. Bu gün 2015-ci il 22 dekabr tarixli BMT Baş Assambleyasının qətnaməsinə əsasən təyin edilmişdir.

UNESCO-nun məlumatına görə ali təhsildə STEM sahəsində tələbələrin 35 faizindən çoxu qadınlardır. İqlim dəyişikliyi, insan sağlamlığı problemləri və süni intelektin sürətli inkişafı kimi qlobal çağırışların olduğu dünyanın daha çox elmi biliyə ehtiyacı var, xüsusilə elmin daha çox qadına ehtiyacı var.

Azərbaycan qadını elm və təhsil, səhiyyə, mədəniyyət, eləcə də, digər sahələrdə qazandığı uğurları ilə nüfuzunu ilbəil artırır.

Bu gün Azərbaycan qadınları elm və təhsildə yeni hədəflərə doğru irəliləyirlər. Bunların sırasında işğaldan azad edilmiş ərazilərə Böyük qayıdış, ətraf mühitin, ekologiyanın sağlamlaşdırılması, sağlam və təhlükəsiz yaşam üçün imkanların genişləndirilməsi, dünya elminə daha geniş inteqrasiya, beynəlxalq elmmetriya reytinqlərində ölkənin göstəricilərinin yüksəldilməsi və digər məsələlər xüsusi yer tutur.

**Gülnar HÜMBƏTOVA,**
**Qəbələ şəhər 4 saylı orta məktəbin müəllimi.**



# Ramazan ayının başlanğıcı

2026-cı ildə Ramazan ayı fevral ayında başlayacaq. Müqəddəs ayın fevralın 19-na təsadüf edəcəyi gözlənilir. Ramazan bayramının isə martın 20-də qeyd ediləcəyi gözlənilir.

Bəzi mənbələrə görə isə, Ramazan ayı 18 fevral, bayramı isə 19 marta təsadüf edəcək.

# "Sehr qutusu"

Fevralın 13-ü Ümumdünya Radio Günüdür. Bu tarix 1946-cı il fevralın 13-də "BMT radiosu"nun ilk dəfə efirə çıxması ilə əlaqədar seçilib.

Ümumdünya Radio Günü bütün radio həvəskarları – istər iri şirkətlər, istərsə də ayrı-ayrı şəxslər arasında əməkdaşlığı möhkəmlətmək və informasiyadan hamının istifadə etməsi imkanlarını artırmaq məqsədilə keçirilir.




Radioverilişlər ən müxtəlif mövzular üzrə demokratik müzakirələr üçün platforma rolunu oynayır. Hətta müasir rəqəmli kommunikasiyalar dünyasında radio digər kütləvi informasiya vasitələri ilə müqayisədə daha böyük insan kütləsinə əlçatandır. Radio vasitəsilə son dərəcə vacib məlumat ötürülür və mühüm mövzular geniş işıqlandırılır.

Azərbaycanda isə hər ilin noyabrın 6-da Radio Günü qeyd olunur. Bu tarixin seçilməsi isə Dövlət Radiosunun 6 noyabr 1926-cı ildə efirə çıxması ilə bağlıdır.

1970-ci ildə Dövlət Radio və Televiziya Verilişləri Komitəsi təsis edildi. 1991-ci ildə Dövlət Televiziya və Radio Verilişləri Komitəsi şirkətə çevrildi. 2005-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə Dövlət Televiziya və Radio Verilişləri Şirkətinin bazasında "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti yaradıldı.

Hazırda paytaxt Bakıda və ölkəmizin digər şəhərlərində onlarla radio kanalı fəaliyyət göstərir.

*"Şəhərsalma və Memarlıq İli"*

# Azərbaycan abidələr məkanıdır

Məlum olduğu kimi, dövlət başçısı İlham Əliyev 22 dekabr 2025-ci il tarixdə 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan edilməsi ilə əlaqədar Sərəncam imzalamışdır. Bu Sərəncam Azərbaycan ərazisində olan tarixi və memarlıq abidələri, o cümlədən qədimliyi özündə yaşadan hər bir qaya parçasına, memarlıq nümunəsi olan, minillikləri özündə yaşadan tikililərin mühafizəsini diqqətə gətirəcək. Qədim qalalar, karvansaralar, müdafiə istehkamları, məscidlər, məbədlər və türbələrlə zəngin olan Azərbaycan bu il ənənəni bir daha yaşadacaq.

Azərbaycanda şəhərsalma və memarlıq ənənələrinin tarixi qədimlərə gedib çıxır. Ümumiyyətlə, Azərbaycan memarlıq irsi qədim dövrlərdən başlayaraq bu günədək zəngin və rəngarəng tarixi, ənənəvi bir yol keçib. 2500 illik bir tarixi özündə yaşadan Qədim Qəbələ istehkam qalası, Kilsədağ məbədi, Şirvanşahlar kompleksi, Xan sarayı, Möminə xatun türbəsi, "Atəşgah" kompleksi, Azərbaycan ərazisində qədim məscidlər və s. kimi tarixi və memarlıq abidələri dünyada özünəməxsus yer tutur. 743-cü ildə Şamaxıda inşa edilmiş qədim məscid Azərbaycanda ən qədim dövrlərdən bu günə qədər memarlığın mərhələli inkişafından xəbər verir. Artıq Azərbaycan qədim mədəniyyət mərkəzi olaraq tarixi və memarlıq abidələri ilə dünya turizminin inkişafına böyük töhfələr verir. UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil olan Qız qalası, İçərişəhər və Şirvanşahlar sarayı kompleksi, Şəki Xan sarayı bunun bariz nümunəsidir.

Bu gün Azərbaycanın hər guşəsi tarixi və memarlıq abidələri ilə zəngindir.

Dahi rəhbər Heydər Əliyevin hər iki hakimiyyəti illərində Azərbaycanda şəhərsalma və memarlığın inkişafı daha da təşəkkül tapdı. Müxtəlif üslublarda inşa olunmuş inzibati binalar, teatrlar və muzeylər, kitabxanalar və konsert salonları, idman kompleksləri və yaşayış massivləri, bağlar və parklar şəhərsalma, abadlıq işləri Ulu Öndərin təşəbbüsü ilə qəbul edilmiş vacib qərarların nəticəsidir. Xatırladım ki, 1976-cı il Qəbələ rayonu ərazisində ən güclü radiolokasiya stansiyası tikilən zaman, 2500 illik qədim Alban tarixi məhv olmaq təhlükəsi ilə üzləşir və müdrik rəhbər Heydər Əliyev anından məsələni həll etmək üçün komissiya yaratmış və bununla da antik dövrdən yadigar qalan, 900 il paytaxt olan, 2500 illik qədim Qəbələ istehkamını məhv olmaqdan qorudu. Heydər Əliyevin göstərişi ilə respublika Nazirlər Soveti 27 mart 1978-ci ildə Qəbələ tarix və mədəniyyət qoruğunun yaradılması haqqında qərar qəbul etdi. Bununla da sovet imperiyasının Azərbaycan xalqına, qədim tarixinə, abidələrinə olan qərəzli və soyuqqanlı davranışlarına qarşı qəti fikrini bildirdi.

Bu gün azad olunmuş ərazilərdə irimiqyaslı tikinti işləri həyata keçirilməkdədir.

Otuz il erməni işğalı altında qalmış Qarabağ və ətraf rayonlarımız dövlətimizin hərtərəfli dəstəyi və həyata keçirdiyi planlar əsasında yeni görkəm alır. Erməni vandalizminin izləri yavaş-yavaş silinir. Tarixi abidələr bərpa olunur, yeni yol-nəqliyyat infrastrukturu yaradılır, yüksəkgərginlikli elektrik xətləri çəkilir, yeni yarımstansiyalar inşa olunur. Bu genişmiqyaslı prosesdə xarici ölkələrin şirkətləri də yaxından iştirak edirlər. Əlbəttə, Qarabağın bərpası təkcə Azərbaycanın deyil, bütövlükdə regionun iqtisadiyyatının mühüm tikintisi olacaq, regional əməkdaşlığın daha da güclənməsinə təkan verəcək. Dövlət başçısı bu əraziləri dirçəltmək üçün əzm və fədakarlıqla xalqla birlikdədir. İşğaldan azad olunmuş ərazilərin bərpası Prezident İlham Əlyevin 2021-ci il 2 fevral tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də öz əksini tapmışdır. Bu məsələnin növbəti illərdə ölkənin sosial-iqtisadi inkişafına dair beş milli prioritetdən biri olaraq müəyyən edilməsi ölkə rəhbərliyinin məsələyə böyük əhəmiyyət verdiyini təsdiqləyir. "Böyük qayıdış" proqramı çərçivəsində həm infrastruktur, həm də sosial və ekoloji layihələri həyata keçirilir. Böyük Qayıdışa dair I Dövlət proqramına əsasən 100-dən artıq yaşayış məntəqəsi, 12 şəhərin quruculuq və yenidənqurma işlərinə start verilib.

Dövlət başçısının bu sərəncamı ölkəmizin daxili və xarici siyasətdə növbəti il üçün prioritet mövzusunu da özündə əks etdirir. Bu, həm də "Azərbaycan 2030: Sosial-iqtisadi İnkişaf üzrə Milli Prioritetlər" strategiyasına uyğun olaraq ölkəmizə urbanizasiya, ekoloji təhlükəsizlik və davamlı inkişaf sahələrində beynəlxalq əlaqələrini gücləndirmək və qlobal proseslərə təsir etmək üçün yeni imkanlar açır.

Bildiyimiz kimi, BMT-nin Ümumdünya Şəhərsalma Forumunun On üçüncü sessiyasının (WUF 13 ) 2026-cı ildə Bakıda keçirilməsi qərarı "Şəhərsalma və Memarlıq ili" ərəfəsində Azərbaycan üçün dayanıqlı inkişaf, perspektiv imkanları daha da artıracaq.

Artıq bir vətən övladı kimi bu qədər irəliləyişin şahidiyik. Artıq Azərbaycanın hər bölgəsində irəliləyiş, dinamik inkişaf prosesləri gözümüz önündədir. 2020-ci ilin Zəfər tarixindən sonra işğaldan azad edilmiş torpaqlarda bərpa və quruculuq işlərini nümunə göstərmək kifayət edər ki, müharibə bitdiyi andan həmin ərazilərdə bərpa və quruculuq işləri aparılır. Müasir yaşayış tələbinə uyğun kənd və qəsəbələr inşa edilir. Belə gözəl, yaraşıqlı binaları, otelləri, sənaye və emal müəssisələrini, zavod və fabrikləri, geniş işıqlı məktəb binalarını görəndə bir fərəh duyuruq. Fərəh duyuruq ki, doğma Azərbaycanımızın hər güşəsi gözəlləşir, abadlaşır, zümrüd meşələrinin, uca zirvələrinin, gur şəlalərinin, coşub-çağlayan çaylarının, yaşıl çəmənlərinin, bir sözlə, bütün təbii gözəlliklərinin üstünə belə bu cür gözəlliklər əlavə olunmuşdur. Bütün bunlar onu göstərir ki, Azərbaycan uğurla gələcəyə addımlayır və bu addımlar dünya ölkələrinin diqqət mərkəzindədir.

**İlhamə SEYİDOVA,**
**"Qəbələ səsi"nin ştatdankənar müxbiri.**